# Qədim içərişəhər tariximizin bir səhifəsidir


(Şək.1)

İçərişəhərin qədim tarixi olduğu kimi, həm də zəngin və orijinal mənəvi sərvətləri, mədəni irsi, qədim etnoqrafiyası, maraqlı adət-ənənələri var. Yüzilliklər boyu xalqımızın yaddaşında, həyat tərzində, milli mənsubiyyətində formalaşan, əsrlərdən-əsrlərə ötürülən bu mənəvi dəyərlərin toplanıb gələcək nəsillərə çatdırılması günümüzün ən vacib vəzifələrindəndir.

Məhz 2005-ci ildə Dünya Bankının maddi dəstəyi ilə "Şəcərə ev muzeyi"nin (əvvəllər "Xalq sənəti evi" adlandırılıb) yaradılması qədim içərişəhərli bir ailənin, nəslin tarixini, adət-ənənəsini, məşğuliyyətini, yaşam tərzini araşdırmaq, toplamaq, bir araya yığmaq və sabahın insanlarına ötürmək məqsədi daşıyır.

Hacıyevlər nəslinə aid zəngin maddi mədəniyyət nümunələrini və mənəvi dəyərlərini özündə əks etdirən "Şəcərə ev muzeyi" əcdadlarımızın bizə yadigar qoyduğu qədim İçərişəhərdə, Maqomayev 99/1 ünvanında fəaliyyət göstərir. **(Şək.1)** 1915-ci ildə təməli qoyulan bu ev Hacı Şıxəli Hacıyev tərəfindən atası Hacı Əli-Əşrəfə məxsus mülkün həyət sahəsində inşa edilib. 2015-ci ildə 100 illiyi qeyd olunan evin ikinci mərtəbəsində yaradılan Şəcərə muzeyi 3 nəsli əhatə edir.


(Şək. 2)

Evə daxil olarkən ilk növbədə o illərdə İçərişəhərə xas memarlıq ünsürləri – evin tavanı, divar şkafları, pəncərələri, pəncərə qapıları sənə bir daha qədim məkanda qərarlaşdığını xatırladır. **(Şək.2)**

**"Şəcərə ev muzeyi" 3 hissədən ibarətdir:**

**I hissə - "Qədim dövr"**

**II hissə - "Balaban"**

**III hissə - "Şəbəkəbənd"**

"Qədim dövr" bölməsində əsasən XIX əsrin ortaları və XX əsrin əvvəllərinə xas əşyalar nümayiş olunur. Burada dünya şöhrətli tikmələrimizi əks etdirən milli geyim nümunələri, tirmə araqçınlar, güləbətin işləməli tumanbağılar, daraqqabı, möhürqabı, qədim sap nümunələri, düymələr, sancaqlar, qədim parçalar, baftalar, şəbəkəbəndlər və s. toplanmışdır.

İçərişəhərlilərin xarakterik cəhətlərindən biri də özlərinə və ailələrinə diqqətli olmalarıdır. Məhz bu baxımdan kolleksiyada toplanmış qadın aksessuarları içərisində evin xanımı Tubu xanıma xas sürmədan, kirşanqabı, ətir şüşəsi, mücrü, güzgü, yelpiklər və s. diqqəti cəlb edir. **(Şək.3)**

Burada eyni zamanda ailənin istifadə etdiyi "Kuznetsov" çini qabları: kasalar, masquralar, plovçuxurlar nəməkdanlar, düşbərəxorlar, buludlar və sair; ikinci hissədə isə çay dəsti, nəlbəkilər, buludlar, qənddanlar və s. nümayiş olunur. Bütün bu əşyalar o dövrün süfrə mədəniyyəti haqqında geniş məlumat verir. (Şək.4)

Bakı xörəkləri haqqında məlumatlara müxtəlif zamanlarda Bakıya təşrif buyurmuş səyyah, alim və yazıçıların xatirələrində rast gəlinir. İçərişəhərdə plovlardan xüsusən fisincan plov, toyuq plov, səbzə plov, südlü plov sevilə-sevilə bişirilərdi. Yarpaq, kələm, pomidor-badımcan dolması, tikə kabab, lülə kabab içərişəhərlilərin tez-tez hazırladığı xörəklərdəndir. Xəmir xörəkləri, xüsusən xəmiraşı, düşbərə, qutab, sulu xəngəl, quru xəngəl, gürzəni ailə başçıları çox sevdiyindən, xanımlar böyük həvəslə ərsəyə gətirərdilər. Bu xörəklərin bişirilməsi çox vaxt aparsa da, bu gün də içərişəhərlilərin əsas menyusundadır. Şirniyyat kimi çox vaxt şəkərbura, paxlava, şəkər çörəyi, süd çörəyi, fəsəli, şorqoğalı bişirilər, müxtəlif meyvələrdən mürəbbələr hazirlanardı.

İçərişəhərdə ev inşa olunarkən bütün


(Şək.3)


(Şək.4)


(Şək.5)


(Şək.6)


(Şək.7)

bu təamları hazırlamaq üçün mətbəxdə evin bacası tikilərdı. Bəzi evlərdə bu günə qədər qorunub saxlanılmış həmin bacalar mətbəxin havasını təbii yolla tənzimləyir.

Xörəklər hazırlanarkən mis qazanlardan, tavalardan, süzgəc, kəfkir, çömçədən, su qablarından istifadə edilirdi.

Muzeyin «Qədim dövr» bölməsində həndəsi və nəbati naxışlarla bəzədilmiş misgərlik nümunələri, o cümlədən, satıl, dolça, məcməyi, sini, tava, teşt, qazan, qablama, kəfkir, ərsin, sərpuş, cam, birəlli (parç), eyni zamanda qiyməkeş, şiş, maşa və tərəzilər nümayiş olunur. Bütün bunları seyr edərkən həmin dövrdə Azərbaycan mətbəxi haqqında müəyyən təsəvvür yaranır. **(Şək.5)**

Evə alınan ilk interyer kamod olmuşdur. Onun üzərində lampa (evin çırağı) qoyulub. İçərişəhərdə ev tikilən kimi birinci çıraq alınardı. Çıraq evi həm işıqlandırar, həm qızdırar, həm də mənən qoruyardı. **(Şək.6)**

Maraq doğuran eksponatlardan biri də üzərində ay-ulduz, ərəb qrafikası ilə yazı və türk sultanlarının möhuru həkk olunmuş, Nuru Paşadan yadigar qəmədir. Qəmə Hacı Şıxəliyə 1918-ci ildə ermənilər tərəfindən törədilən Bakı qırğınları zamanı turk əskərlərinə göstərdiyi qayğıkeş və isti münasibətə görə hörmət əlaməti kimi Nuru Paşa tərəfindən hədiyyə edilib.

Burada eyni zamanda, evin xanımının toxuduğu sənət nümunələrinə də rast gəlinir.

Həmin hissədə toplanan bütün eksponatlar Hacı Şıxəlinin və Tubu xanımın simasında içərişəhərli bir ailənin o illərdəki həyat tərzini, ailə tarixini, süfrə mədəniyyətini, mətbəx ənənlərini və s. geniş şəkildə işıqlandırır. **(Şək.7)**

"Şəcərə ev muzeyi"nin II bölməsi "Balaban" adlanır.

Balaban – tütək mənşəli qədim nəfəsli musiqi alətidir. Balabanın yaranma tarixi eramızdan əvvəlki dövrə təsadüf edir.

Boru şəkilli bu alətin doqquz səs dəliyi vardır - səkkizi alətin üst, biri isə alt tərəfində yerləşir. Alətə nazik qamışdan düzəldilmiş enli müştük taxılır. Balabanın uzunluğu müştüksiz təxminən 25-26 sm olub, əsasən ərik ağacından düzəldilir.

Xalq mahnılarını, milli rəqsləri və qədim muğamları ifa edərkən, ansamblın tərkibinə iki balabançı daxil olur. Onlardan biri əsas melodiyanı ifa edir, digəri isə müşayiətçidir.

Balaban ifaçılığının inkişafında Azərbaycan bəstəkarları mühüm rol oynayıb. Onlar xalq çalğı alətləri orkestri üçün yazdıqları əsərlərində balabandan ustalıqla bəhrələnmişlər. Dahi bəstəkarımız Üzeyir Hacıbəylinin bu sahədə fəaliyyəti xüsusilə diqqətəlayiqdir. Onun gərgin əməyi, böyük səyi nəticəsində 1931-ci ildə Azərbaycan Xalq Çalğı alətləri orkestri yaradılmış və balabandan solo ifaedici alət kimi istifadə olunmuşdur. Bəstəkar özünün məşhur "İkinci fantaziya" əsərində balabanın geniş imkanlarından ustalıqla istifadə edib.

Ü. Hacıbəyli ilə yanaşı başqa bəstəkarlarımız da xalq çalğı alətləri orkestri uçun yazdıqları yeni əsər və pyeslərində balabana solo ifaedici alət kimi geniş yer veriblər.

Muzeyin "Balaban" adlanan hissəsində eksponatlar guşəsi evin II nəsil balaban ustası Məmməd-Naib Hacıyevə həsr edilib. Burada onun hazırladığı nəfəsli musiqi alətlərimizdən balaban, tutək, qara zurna, balaban qamışı, klarnet müştüyü və sair nümayiş olunur. **(Şək.8)**

Musiqi alətləri ilə bərabər, ustanın onları ərsəyə gətirərkən istifadə etdiyi alətlər də toplanmışdır. Maraqlı burasıdır ki, həmin alətlərin özü belə, çox zaman ustanın öz tərəfindən hazırlanardı. Burada onun şəxsi əşyaları və eyni zamanda tanınmış müsiqiçilərlə



(Şək.8)



(Şək.9)



(Şək. 10)

şəkilləri toplanmışdır. AzTV-nin qızıl fondunda qorunan tanınmış musiqiçilərin əsərlərindən respublikanın Əməkdar artisti Bəhruz Zeynalovla və virtuoz musiqiçi Ələkbər Əskərovla lent yazıları qonaqlara təqdim olunur. Həzin balaban sədaları altında sərgilənən bu eksponatlar Usta Məmməd-Haibin həyatı və yaradıcılıgı haqqında geniş məlumat verir. **(Şək.9)**

"Şəcərə ev muzeyi"nin III hissəsi "Şəbəkəbənd" adlanır.

Yaxın və Orta Şərq memarlığında və dekorativ tətbiqi sənətində bədii konstruktiv forma sayılan şəbəkədən Azərbaycanda zərgərlik, xarratlıq və metalişləmə sənətində geniş istifadə edilmişdir. Zərgərlikdə şəbəkə üsulu ilə bəzək əşyaları – qolbaq, sinəbənd, sırğa və s. hazırlanar, memarlıqda isə bu üsuldan qapı, pəncərə, arakəsmə, məscidlərdə minbərlərin düzəldilmməsində istifadə olunardu. Bu üsul get-gedə dünya şöhrətli tikmələrimiz olan təkəlduz, güləbətin, piləgə və sair arasında öz yerini tapır. Belə ki, milli geyimlərimizə bəzək əşyası kimi əlavələr edilər, müxtəlif formalı süfrələr, pərdələr toxunulardı.

Şəbəkəbənd üsulu bu gün də öz gözəlliyi, zərifliyi və füsunkarlığı ilə istər zərgərlik, istər memarlıq, istərsə də tikmələrimiz arasında böyük maraqla qarşılanır.

Muzeyin "Şəbəkəbənd" adlanan III hissəsində isə evin III nəsli şəbəkəbənd ustası beynəlxalq sərgilər diplomçusu və festivallar laureatı, Azərbaycan Rəssamlar İttifaqının üzvü, Əməkdar mədəniyyət işçisi Mələk Xanım Hacıyevanın şəbəkəbənd üsulu ilə toxuduğu əl işləri nümayiş olunur. **(Şək.10)**

Burada şəbəkəbənd ustası Mələk Xanım Hacıyevanın zərif əl işləri sərgilənməklə yanaşı, iştirak etdiyi sərgilər, festivallar, təltif edildiyi mükafatlar haqqında məlumat verilir, fotoşəkillər, videogörüntülər və sair nümayiş olunur. Bütövlükdə Şəcərə ev-muzeyi haqqında deyilənləri virtual şəkildə http://www.shecere-muzeyi.com/ internet saytında izləmək mümkündür.

Şəcərə evi ilə tanış olarkən bir daha Azərbaycanın paytaxtı Bakı şəhərinin qədim hissəsi kimi qorunan İçərişəhərin əsrlər boyu formalaşan adətlərinin, ənənələrinin, maraqlı həyat tərzinin, zəngin etnoqrafiyasının, yüksək mədəniyyətinin şahidi olursan. Bu gün də müasir ailə məişət münasibətlərində həmin adətlərin izləri görünməkdədir. Azərbaycanlıların ailə məişətində bu adətlərin yaşaması, davam etdirilməsi xalqımızın qədim və zəngin irsinə dəlalət edir. Bu baxımdan əsrlər boyu Azərbaycanın mədəniyyət mərkəzi olmuş Bakının İçərişəhər tarixi ilə yanaşı, onun adət-ənənələri, həyat tərzi, etnoqrafiyası daha dərindən araşdırılmalı, öyrənilməli, və gələcək nəsillərə ötürülməlidir.

Heç də təsadüfi deyil ki, möhtərəm Prezidentimiz İlham Əliyev 2019-cu ilin mart ayıda İçərişəhər sakinləri ilə görüşündə demişdir: "İçərişəhər bizim tarixi yerimizdir... İçərişəhərlilər, onlara xas olan həyat tərzi, mədəniyyət – bunlar bizim böyük sərvətimizdir".

Sevindirici haldır ki, haqqında danışdığım "Şəcərə ev muzeyi" İçərişəhərdə tək deyil. Onun kimi Azərbaycan və Rusiya Rəssamlar İttifaqının üzvü, qurama ustası Xalidə Nəsirovanın açdığı "Qurama evi" milli tikmələrimizdən olan əsrarəngiz qurama haqqında geniş təsəvvür yaradır. Eyni zamanda XX əsrin ortalarından bu günə kimi çəkmə modellərini nümayiş etdirən Usta Əlinin evi, Mir Teymur Məmmədovun Keramika yaradıcılıq mərkəzi və digərləri də qədim İçərişəhərin qonaqları üçün çox maraqlıdır.

Sizin hər birinizi qədim İçərişəhərə, bu ünvanlara dəvət edirəm!

**Mələk Xanım Hacıyeva**
Əməkdar mədəniyyət işçisi